# ŞEYX MƏHƏMMƏD XİYABANİNİN PUBLİSİSTİKASI



*VÜQAR ƏHMƏD,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Mətbuat tarixi və publisistika" şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor*

*(Əvvəli ötən sayımızda)*

Təsadüfi deyilki, sonrakı demokratik hərəkatlarda onun adı məhz azərbaycanlı bir lider kimi qaldı. Çünki onun siyasi-publisist irsinin mərkəzi məsələsi məhz Azərbaycan xalqının taleyidir.

Bizə məlumdur ki, Güney Azərbaycanda ilk dəfə ana dilində nəşr olunan ədəbi-bədii məcmuə "Azərbaycan" (1906-1907) idi. Bu məcmuənin adı bilavasitə Səttarxanın adı ilə bağlıdır. Sərdari-milli inqilaba rəhbərlik etdiyi zaman milli mətbuatın yaranması və ana dilinin inkişafı uğrunda bir sıra tədbirlər görür, bu sahədə ciddi fəaliyyət göstərənləri təltif edirdi. "Azərbaycan" məcmuəsinin birinci nömrəsini gördükdə Səttarxanın sevincdən ağladığı qeyd edilir. "Azərbaycan" məcmuəsindən əlavə, Məşrutə hərəkatının təsiri altında Təbrizdə "Əncümən", "Azad", "Maarif", "Təməddün", "Sübhi-Sadiq" kimi qəzet və məcmuələr çıxırdı. Xiyabani imkanı daxilində bu dərgiləri və ruznamələri mütaliə edir, yeri gələndə dövri mətbuatda bu mətbuat vasitələrindəki yazılara, məqalələrə öz münasibətini bildirirdi. Lakin Xiyabani tək bununla kifayətlənmirdi.

Ümumiyyətlə mütaliəni çox sevən inqilabçı Quzey Azərbaycanda çıxan "Molla Nəsrəddin", "Fyuzat", "Yeni Fyuzat", "Həyat", "Tərəqqi", "Babayi-Əmir" və s. Qəzet və jurnalları da zaman-zaman mütaliə edirdi. "Molla Nəsrəddin" ənənələrini davam etdirən "Azərbaycan" məcmuəsinin qiymətli cəhətlərindən biri də müasir mövzularda, yerli şərait üçün aktual məsələlərdən yazması idi. Bu da Xiyabaninin diqqətindən yayınmırdı.

Şübhəsiz ki, bütün bunlar Xiyabaniyə lazım olan məlumatları çatdırmaqla yanaşı, onun gələcək ədəbi fəaliyyətinə də öz təsirini göstərirdi. Tarixdən məlumdur ki, hər bir ədəbi məktəb, ədəbi cərəyan, özündən əvvəlki ədəbi irsə öz münasibətini bildirir. Yəni mütərəqqi ədəbi məktəb, ədəbi cərəyan xalqın həyatını, onun qabaqcıl arzu və meyllərini əks etdirməyi özünün vacib vəzifələrindən hesab edir. Beləliklə də o, xalqın yaratdığı ən yaxşı mənəvi sərvətlərdən qida alaraq, onu inkişaf etdirib yeni pilləyə qaldırır. Azərbaycan ədəbi məktəbindən, ədəbi cərəyanından kifayət qədər bəhrələnmiş Xiyabani, Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundov, Məhəmməd Şahtaxtlı, Firidun bəy Köçərli, Cəlil Məmmədquluzadə, M.Ə.Sabir, M.Ə.Rəsulzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, eyni zamanda Bayraməli Abbaszadə, Səid Səlmasi, Əşrəfəddin Gilani və başqa sənətkarların davamçısı kimi, yaşadığı dövrün real hadisələrini, ən vacib məsələlərini, eyni zamanda xalqın arzu və istəklərini dünya ictimayyətinə çatdırmaq üçün fəaliyyət göstərirdi.

Hər bir publisistin özünəməxsus üslubu, metodu, öz dəsti-xətti olur. Xiyabani heç vaxt planlı, tərtibli çıxışlar etmirdi, lakin buna baxmayaraq oxucunun və dinləyicinin diqqətini vacib bir mətləbə, daha doğrusu problemlərə yönəltməyi bacarırdı. Onun ədəbi-nə-zərisiyasi söhbətləri sislsiləsində ədəbi fəaliyyətinin idrak və inikas xususiyyəti, obrazlılıq spesifikası idi. Xiyabani heç bir həyat məsələsini, heç bir mövzunu ədəbi cərəyana yabançı hesab eləmirdi. Ona görə də, onun hər bir sözündə, hər bir kəlamında, hik-mə-tən başqa, bir poetiklik, bədiilik vardı. O, siyasi aktuallıq xatirinə heç zaman bədiiliyin üstündən xətt çək-mirdi. Məhz buna görə də onun publisistikasında bədii ifadələr daha çox öz əksini tapırdı. Məsələn onun tez-tez işlətdiyi "Haqqı verməzlər, haqqı almaq lazımdır" ifadə, uzun illərdir ki, bütün Azərbaycan xalqı arasında atalar sözü kimi işlənir. Xiyabani öz çıxışlarında müstəmləkəçiləri, mürtəceləri, zora-kılığı ifşa eləyərkən heç zaman şüar-çağırışa, "Yavan" təbliğata yol vermirdi, sadəcə olaraq xalqına bəslədiyi eşqin, ehtiramın naminə öz ideyalarını olduğu kimi oxuculara və dinləyicilərə çatdırırdı. Xiyabani nəzəriyyəçi deyildi. Amma nəzəri biliyə, sənət və həyat məsələlərinə dair geniş məlumata malik idi. Düzdür onun həyat və sənət məsələlərinə həsr edilmiş ayrıca bir əsəri yoxdur, lakin onun ədəbi cərəyanın mətləbinə, həyata münasibətinə-münasibəti, publisistikasında əsas və əhəmiyyətli yerlərdən birini tuturdu. Hər şeydən əvvəl isə yuxarıda qeyd olunduğu kimi müqəddəs Qurani-Kərimdən faydalanma, eyni zamanda qoca Şərqin qədim mədəniyyəti, Azərbaycan, ərəb, fars klassikləri, fəlsəfi təfəkkürlə onun yüksək poetik ifadəsi, şübhəsiz ki, bu təsir mənbələrindən biridir.

Xiyabaninin ədəbi fəaliyyətinin əsas fəaliyyətini təşkil edən publisistikasında vətənpərvər insanlara, şəhidlərə və qazilərə, demokratik qüvvələrə, şəhid analarına və qohumlarına dərin hüsnrəğbət, irticaçılara, işğalçılara, müstəmləkəçilərə olduqca böyük nifrət duyulmaqdadır. Onun bəzən polemik təkrarlarla kini, nifrəti ildirım kimi çaxır. Onun 1920-ci ildəki nitqlərinə nəzər yetirərkən ən çox istifadə olunan üslubi fiqurlardan bədii ifadə vasitəsi kimi istifadə elədiyini görürük. "Ey mürtəce", "Ey bədbəxt və şuursuz mürtəce" və yaxud "Ey Azərbaycan", "Ey azadxahlar" kimi ifadələrdən, eyni zamanda ayrı-ayrı leksik vahidlərin dərin fikirlərin ifadəsinə necə xidmət etdiyinin şahidi oluruq. Hər dəfə bir mənzərə, hər dəfə bir publisist dünya, publisist aləm, dinləyicini həyəcana gətirən ehtiraslı ziddiyyətlərin təsviri ilə dolu ifadələrlə qarşılaşmalı oluruq. Böyük idrakla elmi və fəlsəfi fəhmin vəhdətindən yaranan ecazkar lövhələri aydın görürük. Hissin, düşüncənin, təxəyyülün və şəxsi mülahizənin tarixi reallıqlarla münasibətdə aydın şəkildə özünü doğruldan, bədbinlik zülmətində ümid çırağı kimi görünən, eyni zamanda romantizm və realizm arasında sintez yaradan, subyektivlik təhlükəsindən qurtarıb, tam obyektivliyə nail olan, yalnış hökmlərin əsassızlığını aşkar edən, fəlsəfi və etik təhlil libasında təzahür edən Xiyabani publisistikası zamanının demək olar ki, bütün problemlərini əhatə edirdi. Xiyabani öz çıxışlarında heç bir şeyi nəzərdən buraxmır, olduqca obyektiv şəkildə hadisələrə öz münasibətini göstərir. Bizə elə gəlir ki, onun çıxışlarını olduqca ibrətli tövsiyələr toplusu kimi də dəyərləndirmək olar. Buna misal olraq Xiyabaninin xalq qarşısında söylədiyi nitqlərdən bir neçəsini oxuculara çatdırmağı özümüzə borc bilirik...

**24 aprel 1920**

Biz azadxahlar xalq adına, xalqın hüququnu müdafiə adına səsimizi yüksəldirik. Biz heç bır diplomatiya dilini bilmirik və bilmək də istəmirik. Öz yeganə məqsədimizi gizlətmək üçün siyasətçilərin işlətdikləri yalanlardan istifadə etmək fikrində deyilik. Biz sözümüzü doğru və açıq deyirik. Elə düşmənləri daha çox qorxuya salan da bizim düzlüyümüz və qorxmağlığımızdır. Biz aldanmayacağıq. İstibad və xəyanət zamanlarında Qanuni-əsasiyə müxalif və azadlığa düşmən olanlar bizi aldada bilməyəcəklər. Biz çox imtahanlardan keçmişik. On beş illik inqilabımız həddibuluğa çatmış və yaşa dolmuşdur. Artıq pisi yaxşıdan ayırd edə bilir və bir dəfə təcrübədən çıxmış işi, daha təcrübə etmək istəmirik. Qanuni-əsasinin ən sadiq keşikçiləri inqılabı yaradanlardır. Azadxahlar bu müqəddəs keşiyi özlərinin ən mühüm vəzifələri saymalıdırlar. Bu elə bir ləyaqətli vəzifədir ki, insan onun yolunda gözüyumulu qurban gedə bilər. Mühüm zamanlarda adi məsələləri unutmalı, əsli vəzifəni və ictimai mənafei nəzərdə tutmalıdır. Öz qeydinə qalmağı yaddan çıxarmaq lazımdır. Yalnız ümumən, cəmiyyətin fikrini çəkməlidir. Bizim yeganə məqsədimiz bir demokratik hökumət təsis etməkdir ki, bu məmləkətin azadlığını təmin etsin və onu möhkəmləndirsin Bu arzunun düşmənləri bizim düşmənlərimizdir. Bizim yeganə vəzifəmiz düşmənlərin əlini azadlıq rejiminə münasibət və rabitəsi olan işlərdən kəsməkdir. Uca və gur səslə deyirik: Ey müstəbid, ey mürtəce! Hamınız bilin ki, sizin namusunuz, mal və canınız amandadır. Lakin bundan sonra demokratiyanın müqəddəratı sizin kirli əllərinizə verilməyəcəkdir. Bu sözlər bir şəxsin, bir vahid fərdin, bir müəyyən natiqin, bir nəfər Xiyabaninin dili ilə deyilmir. Bu sözləri deyən demokratizmin ruhudur. Ey azadxahlar! Ümidvar olun, çünki siz bir müəyyən iradə ilə, bilərəkdən, anlayaraqdan qiyam etmisiz. Qələbə və müvəffəqiyyət sizinlədir".

**5 may 1920**

Ölkənin azadlıq və istiqlalı yolunda həvəslə çalışılmalıdır. Bu günkü cəşnimiz qurtardı. Bu cəşi azadlıq yolunda şəhid olmuş qəhrəmanları xatırlamaq, onların əziz adlarını əbədiləşdirmək üçün təşkil edilmiş və Təbrizin azadxahları bura toplaşmışlar. Bir mühüm məsələni hörmətli məsləkdaşlarıma xatırlamaqla, onları təbrik etməliyəm. Bu neçə gününüz şadlıq və başaşətlə keçdi. Azadlıq üçün qurban getmiş adlı-sanlı gənclərimizin və qəhrəman sər-darlarımızın adları hər saat və hər dəqiqə dillərdə deyilməkdə idi. Onların xatirəsi bütün ürəkləri ən mehriban hisslərlə həyəcana gətirirdi. Onları yad edirik. Lakin bu yadəvərlik müzəffəriyyətə doğru gedən bir əsgərin xatirəsi kimidir. Şəhidlərimizin qəbri üzərində kimsə aşlamadı, kimsə yazıqcasına nalə və fəryad etmədi. Biz, hörmətli, şəhidlərimizin qəbirləri üzərində açıq üz və şadlıqla diz çökdük. Onlara baxdıq və bu şəhidləri özümüz kimi diri hiss etdik. Bu o deməkdir ki, biz tərəddüd etmədən öz həyatımızı onların ölməz ruhu ilə əvəz etməyə hazır idik. Həmişə bir iradəyə malik olmalıyıq. Ölkənin azadlıq və istiqlalı üçün həmişə şad və şənliklə çalışılmalıdır. Məhzunluq tozuna bürünmüş qəm və qüssə həmişə ümidsizlik gətirər. Yaşasın bəşşaş ruhlar! Yaşasın həyat səhnəsinə açıq baxan, qorxu bilməyən və uzaq görən gözlər! Məhv olsun indiyə kimi acizlik, yas və biçarəlik təsirləri altında saxlamış qəm və qüssə...

Xalqımızın böyük bir qüvvəsi bu ətalət və ixtiyarsızlıq kabusu altında məhv olmuşdur. Bundan sonra həyatı şən və gülərüzlə keçirməli, həyat mübarizəsinə bəçatət və şadlıqla girişməlidir. Varlıq gülşəninə acizlik, nalə və miskinliklə deyil, ümid və şərəf gülüşləri ilə girək. Dəfələrlə dediyim kimi, fərd ilə cəmiyyətin əhvali-ruhiyyəsində böyük fərq vardır. Cəmiyyətin əhvali-ruhiyyəsi fərdlərin əhvaliruhiyyəsinin yekunudur. Lakin bu əhvaliruhiyyə həmin cüz olan əhvali-ruhiyyədən tamamilə fərqlənir. Fərdin əhvaliruhiyyəsi fərdin əhvali-ruhiyyəsinə tabe olmalıdır. Çox nadir hallarda elə bir əhvali-ruhiyyə tapıla bilər ki, özünü bu tabelikdən xilas edə bilsin. Dəfələrlə elə olmuşdur ki, alim və ya bilikli bir adam cəmiyyətin əhvali-ruhiyyəsinin təsiri altında öz hikmət və biliyini əldən vermişdir. Qarətçiliklə məşğul olan bir cəmiyyətin sırasında talançılıq süfrəsinə əl uzatmış, cəmiyyətin ən alçaq fərdləri kimi rəftar etmişdir. Habelə bunun əksinə olan hallar da vardır.

Cəmiyyət həmişə fəsad və xarabaçılığa bais olmur. Fikirləri zəlalət və pisliyə tərəf yönəltmir. Biz görürük ki, bir oğru dəstəsi ictimai bir təşkilata tabe olmaq vasitəsilə, düzgün bir həyat tərzinə nail olur. İran xalqı bu günədək özbaşına həyat sürmüş və alağ otu kimi təbiətin sinəsində böyümüş və artmışdır. Bu təəsüflü vəziyyətin inkişaf etməsi üçün daxili nüfuzların varlığı da müəyyən rol oynamışdır. Güc və yaramaz nəzəriyyə və əqidələrə malik olan bir dəstə, xalqı uzun müddət boş-boşuna və təklifsizlik çöllərində dolandırmışdır. İran xalqı möhkəm əqidə olmadan, təcrübə və imtahanlardan sayıqlıqla istifadə etmədən, təşkilat və tərtibatsız şəkildə uzun müddət özbaşına və təbii yol getmişdir. O, bu günki günə kortəbii surətdə yaşayıb gəlmişdir. Bu özbaşına göyərmiş ağaca peyvənd vurmalıdır. Yeni, sağlam və düzgün nəzəriyyəni bu camaata təlqin etməklə, onun mühütündə bir təcəddüd-təkamül yaranmasına nail olmalıdır. Xalqın iradəsi nəzəriyyəcə bütün bəşər kütlələrinin fövqündədir. Xalqın iradəsinin istədiyi şey müqəddəs və möhtərəmdir. Lakin bu iradə müstəqil yaşamaq üçün vicdana malik olmalıdır. O, nəzərlərdə saf, səmimi və parlaq şəkildə aydın olmalı və öz varlığını subut etməlidir. Cəmiyyəti təşkil edən fərdlərdən hər biri bir bəşşaş ruh ilə müstəqil vicdan ilə silahlanıb, bu ruhiyyəni qüvvəsini dünya qarşısında nümayiş etdirməlidir. İran əhalisi bu günədək dağınıq fikirlərin təsirinə əsir olub, öz möhkəm, mətin və vahid iradəsini göstərə bilməmişdir. Lakin indi özünü toplayıb vicdani imtahana hazır olmalıdır. O, öz hazırkı vəziyyətini nəzərdən keçirməlidir, gələcəyini qabaqcadan görməlidir. Aydın və müəyyən vəzifə qarşısında silahlanıb şərafət mübarizəsinə girişməlidir. Buna görə də biz bütün varlığımızı sərf edirik ki, xalq öz nöqsan və eyiblərini anlasın, başa düşsün, Biz tərəqqi və təkamül yolunu ona nişan veririk. Batil təsəvvür və xəyalları onu şüurundan çıxarıb, bunların yerinə həyat bəxş edən yeni fikirləri yerləşdirməyə çalışırıq. Bu məqsədə çatmaq üçün deyirik: Bu cəmiyyəti təşkil edən fərdlərdən hər birisi xalqa olan böyük ruh yüksəkliyi ilə silahlanıb, öz varlığında saxladığı azadlıq və istiqlal ruhunu başqalarına da təlqin etsin.

*(Davamı var)*